## “MƏLUMAT LÖVHƏLƏRİNİN DİZAYNININ HAZIRLANMASI MÜSABİQƏSİ”NİN REQLAMENTİ

“Məlumat lövhələrinin dizaynının hazırlanması müsabiqəsi” (bundan sonra – müsabiqə) dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələri üçün yeni məlumat lövhələrinin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin (bundan sonra – Xidmət) təşkilatçılığı ilə keçirilir.

Müsabiqənin keçirilməsində əsas məqsəd tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, təbliği və gələcək nəsillərə çatdırılması üçün məlumat lövhələrinin dizaynının hazırlanmasıdır.

### MÜSABİQƏYƏ TƏQDİM OLUNAN DİZAYIN LAYİHƏLƏRİNİN MÖVZUSU

- Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələri üçün məlumat lövhələrinin dizaynının hazırlanmasıdır.

### MÜSABİQƏNİN MƏRHƏLƏLƏRİ

Müsabiqə aşağıdakı 2 (iki) mərhələdən ibarətdir:

- Müsabiqənin birinci mərhələsi 15 aprel – 15 may 2024-cü il tarixlərini əhatə edir və bu mərhələdə Xidmət tərəfindən layihələrin və sənədlərin qəbulu həyata keçirilir.
- Müsabiqənin ikinci mərhələsi 16-27 may 2024-cü il tarixlərini əhatə edir və Ekspert Şurası tərəfindən təqdim olunan layihələrin qiymətləndirməsi həyata keçirilir.
- Müsabiqəyə qoşulmaq istəyən şəxslər təqdim edəcəkləri layihələri 15 aprel – 15 may 2024-cü il tarixlərində info@heritage.gov.az elektron ünvanına göndərə və ya Xidmətə (Üzeyir Hacıbəyli 84, Hökumət evi, 8-ci mərtəbə) təqdim edə bilərlər.

### MÜSABİQƏYƏ TƏQDİM EDİLİR:

- iştirakçıların şəxsiyyət vəsiqələrinin (daimi yaşayış icazələrinin) surəti;
- iştirakçıların tərcümeyi-halları;
- dizayn layihələri.

### QİYMƏTLƏNDİRMƏ VƏ MÜKAFAT:

- Ekspert Şurasının qiymətləndirməsi nəticəsində qalib iştirakçı müəyyən ediləcək və ən çox bal toplamış bir namizəd Xidmət tərəfindən mükafatlandırılacaqdır. Müsabiqənin ümumi fondu 1000 AZN təşkil edir.
- Qiymətləndirmə bu Reqlamentdə göstərilmiş meyarlar nəzərə alınmaqla aparılır. Hər bir meyar üzrə ayrılıqda qiymətləndirmə 1-10 bal aralığında müəyyən edilir. Ekspert Şurasının üzvləri tərəfindən verilmiş qiymətlər toplanaraq ümumi bal müəyyən olunur və yekun nəticə rəsmiləşdirilir. Ekspert Şurasının hər bir üzvü tərəfindən verilmiş bal 5 meyar üzrə verilmiş qiymətin cəmindən ibarətdir.

- Yekun nəticə aşağıdakı düstur əsasında hesablanılır:

$$\frac{\text{Ümumi balların cəmi}}{\text{Ekspert Şurasının üzvlərinin sayı}} = \text{Nəticə}$$

- Müsabiqəyə iştirakçılar tərəfindən təqdim edilmiş layihələr qiymətləndirilərkən aşağıdakı meyarlar nəzərə alınır:

- abidələrin bədii-estetik görkəminə uyğunluq səviyyəsi;
- məlumatın düzgün təqdim olunma səviyyəsi;
- sadə, rahat anlaşılan və konseptual görünüş səviyyəsi;
- diqqəti cəlb etmə və təsir imkanları;
- beynəlxalq təcrübədən yararlanma səviyyəsi.

• Müsabiqənin qaliblərinin adları 30 may 2024-cü il tarixində Nazirliyin rəsmi saytında (culture.gov.az) elan olunacaqdır.

**MÜSABİQƏNİN QƏBUL ŞƏRTLƏRİ**

• Müsabiqədə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayış icazəsi olan şəxslər iştirak edə bilərlər.
• Hər iştirakçı yalnız bir layihə ilə müsabiqəyə qoşula bilər.
• Məlumat lövhəsinin üzərində "Dövlət tərəfindən qorunur, abidənin təsnifatı, QR-kod" məlumatının əks olunacağı nəzərə alınmalıdır.
• Lövhənin ölçüləri: 60x40 sm.
• Dayaqlı və divara bərkidilən olaraq, 2 (iki) formada hazırlanmalıdır.
• Təbii və zərbə təsirlərinə davamlı, sərt materiallar üzərində çap ediləcəyi nəzərə alınmalıdır.
• Təqdim olunan nümunələrin rastr (*jpeg, *png (ölçüsü 500 kb-dan az olmamaq şərti ilə) və vektor (*eps, *ai, *cdr) qrafik versiyaları olmalıdır.
• Faylların ölçüsü 5 meqabaytdan artıq olmamalıdır.

Obyektivliyi təmin etmək üçün dizayn layihələri kodlaşdırılmış adlarla Ekspert Şurasına təqdim olunur.

Xidmət müsabiqənin daha geniş izləyici kütləsinə çatdırılması məqsədilə təqdim olunan dizayn nümunələrini mediada yayımlaya bilər. Bu halda iştirakçıların müəlliflik hüququ təmin olunur.

Təqdim olunan dizayn layihələrində müəllif hüquqları məsələləri ilə bağlı yarana biləcək hər hansı mübahisəli məsələyə görə məsuliyyəti müsabiqə iştirakçısı daşıyır.

Əlavə məlumat üçün:
*Telefon: +994 12 565 01 47, daxili 530*
*E-poçt: info@heritage.gov.az*

***Qeyd**: Həftənin iş günləri saat 09:00-18:00-dək sənədlərin və dizayn layihələrinin qəbulu* həyata keçirilir.